# "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktların həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının prezidentinə məlumat versin;

"Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

həmin Qanunun 5.1-ci və 8.4-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanına dair təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

həmin Qanunun 8.6-cı maddəsinin müddəalarını nəzərə almaqla feldyeger rabitəsi orqanında xidmət keçmə haqqında Əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

həmin Qanunun 10.1-ci maddəsində nəzərdə tutulmuş xidməti vəzifəsini yerinə yetirərkən həlak olmuş (vəfat etmiş) və ya xidmətinin davam etdirməsinə imkan verməyən xəstəliyə tutulmuş, yaxud xəsarət (yaralanma, travma, kontuziya) almış feldyeger rabitəsi orqanının şəxsi heyətinin əməkdaşlarına və onların ailə üzvlərinə verilən birdəfəlik müavinətin məbləği və verilməsi qaydası haqqında təkliflərini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin; [1]

həmin Qanunun 10.3-cü maddəsində nəzərdə tutulmuş feldyeger rabitəsi orqanının şəxsi heyətinə daxil olan əməkdaşlara xidmət illəri üçün əlavə ödənişin verilməsi qaydasını təsdiq etsin;

bu Fərmanın 2-ci bəndində Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərə dair normativ-hüquqi aktların işlənib hazırlanmasını və təsdiq edilməsini təmin etsin;

öz səlahiyyətləri daxilində "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

*2. Müəyyən edilsin ki:* [2]

*2.1. "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun 5.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*

*2.2. həmin Qanunun 11.4-cü (birinci halda) və 12.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;*

*2.3. həmin Qanunun 5.1-ci və 11.4-cü (ikinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirir;*

*2.4. həmin Qanunun 5.3-cü maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Xarici İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti həyata keçirirlər;*

*2.5. həmin Qanunun 11.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir.*

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 avqust 2003-cü il
903

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 14 iyun 2007-ci il tarixli 588 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 601**)
2. 10 sentyabr 2008-ci il tarixli 825 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 9, maddə 797**)
3. 11 noyabr 2008-ci il tarixli 10 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 12 noyabr 2008-ci il, 253, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 11, maddə 966**)
4. 11 noyabr 2008-ci il tarixli 13 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 19 noyabr 2008-ci il, 259, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 11, maddə 969**)
5. 11 aprel 2014-cü il tarixli **148** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 12 aprel 2014-cü il, 73 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 364**)
6. 10 iyul 2018-ci il tarixli **186** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 15 iyul 2018-ci il, 155, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1472**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 11 noyabr 2008-ci il tarixli 10 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 12 noyabr 2008-ci il, 253, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 11, maddə 966**) ilə 1-ci bəndinin yeddinci abzasında "**xəsarət**" sözündən sonra "**(yaralanma, travma, kontuziya)**" sözləri əlavə edilmişdir.

[2] 14 iyun 2007-ci il tarixli **588** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 601**) ilə 2-ci bəndin üçüncü abzasından «**11.3-cü,**» sözü çıxarılmışdır.

10 sentyabr 2008-ci il tarixli **825** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 9, maddə 797**) ilə 2-ci bəndinin dördüncü abzasında «**Dövlət Konserni**» sözləri «**Qapalı Səhmdar Cəmiyyəti**» sözləri ilə əvəz edilmişdir.

11 noyabr 2008-ci il tarixli 13 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 19 noyabr 2008-ci il, 259, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 11, maddə 969**) ilə 2-ci bəndinin dördüncü abzasında «**Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyəti**» sözlərindən əvvəl «**Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası,**» sözləri əlavə edilmişdir.

11 aprel 2014-cü il tarixli **148** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 12 aprel 2014-cü il, 73 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 364**) ilə 2-ci hissəsinin dördüncü abzasında "**Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi**" sözləri "**Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti** " sözləri ilə əvəz edilmişdir.

14 iyun 2007-ci il tarixli **588** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 601**) ilə 2-ci bəndə yeddinci abzas əlavə edilmişdir.

10 iyul 2018-ci il tarixli **186** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 15 iyul 2018-ci il, 155, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1472**) ilə 2-ci hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~2. Müəyyən edilsin ki:~~

~~"Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun 5.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının prezidenti həyata keçirir;~~

~~həmin Qanunun 2.0.2-ci, 6.1.5-ci, 10.3-cü, 11.3-cü, 11.4-cü və 11.6-cı maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;~~

~~həmin Qanunun 5.3-cü maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, Azərbaycan Dövlət Dəmir Yolu və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti həyata keçirirlər;~~

~~həmin Qanunun 8.7-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanları" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi nəzərdə tutulur;~~

~~həmin Qanunun 13-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı həyata keçirir.~~

~~həmin Qanunun 11.3-cü maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir.~~